| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 15.08.1996 |
| QEYDİYYAT NÖMRƏSİ | 484 |
| ADI | Radiotezliklər üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının yaradılması haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 16-08-1996, Nəşr nömrəsi: 157) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 180.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

## ~~Radiotezliklər üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının yaradılması haqqında~~

~~AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI~~[1]

~~Azərbaycan Respublikasında radiokommunikasiya vasitələrindən və yüksək tezlikli qurğulardan istifadə edilməsinin səmərəliyini artırmaq və bu sahədə ayrı-ayrı idarə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**~~

~~1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Radiotezliklər üzrə Dövlət Komissiyası yaradılsın.~~

~~2. Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov Radiotezliklər üzrə Dövlət Komissiyasının sədri təyin edilsin.~~

~~3. Azərbaycan Respublikasının *nəqliyyat, rabitə və yüksək texnologiyalar* naziri (vəzifəsinə görə) Radiotezliklər üzrə Dövlət Komissiyası sədrinin müavini təyin edilsin.~~

~~4. Müəyyən edilsin ki, Radiotezliklər üzrə Dövlət Komissiyasının tərkibinə *nəqliyyat, rabitə və yüksək texnologiyalar*, müdafiə, daxili işlər nazirliklərinin *və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin* rəhbərləri tərəfindən təyin edilən bu orqanların səlahiyyətli nümayəndələri daxildir.~~[2]

~~Radiotezliklər üzrə Dövlət Komissiyasının qərarı ilə radiokommunikasiya vasitələrini istehsal və istismar edən respublikanın digər müəssisələrinin nümayəndələri də bu komissiyanın tərkibinə daxil edilə bilərlər.~~

~~5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay ərzində Radiotezliklər üzrə Dövlət Komissiyası haqqında Əsasnaməni təsdiq etsin və bu fərmandan irəli gələn digər məsələləri həll etsin.~~

**~~Azərbaycan Respublikasının Prezidenti~~**
**~~Heydər ƏLİYEV~~**

~~Bakı şəhəri, 15 avqust 1996-cı il~~
~~484~~

### FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 11 noyabr 2008-ci il tarixli 13 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 19 noyabr 2008-ci il, 259, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 969**)
2. 21 yanvar 2017-ci il tarixli **1204** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 yanvar 2017-ci il, 14 ; "Xalq" qəzeti, 28 yanvar 2017-ci il, 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1 , maddə 51**)
3. 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840**)
4. 4 may 2021-ci il tarixli **1329** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 may 2021-ci il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 436**)

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

[1] 4 may 2021-ci il tarixli **1329** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 may 2021-ci il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 436**) ilə ləğv edilmişdir.

[2] 11 noyabr 2008-ci il tarixli 13 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 19 noyabr 2008-ci il, 259, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 969**) ilə 4-cü bəndində «**Azərbaycan Hava Yolları Dövlət Konserninin**» sözləri «**Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasının**» sözləri ilə əvəz edilmişdir.

19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840**) ilə 3-cü və 4-cü hissələrində "**rabitə**" sözü "**nəqliyyat, rabitə və yüksək texnologiyalar**" sözləri ilə, 4-cü hissəsində "**, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasının**" sözləri "**və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin** " sözləri ilə əvəz edilmişdir.

21 yanvar 2017-ci il tarixli **1204** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 yanvar 2017-ci il, 14 ; "Xalq" qəzeti, 28 yanvar 2017-ci il, 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1 , maddə 51**) ilə 4-cü hissədən "**, milli təhlükəsizlik** " sözləri çıxarılmışdır, həmin hissəyə "**nazirliklərinin**" sözündən sonra **", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin"** sözləri əlavə edilmişdir.